AZƏRBAYCAN XƏBƏRLƏRİ

Ticarət şəbəkələrində həm tibbi, həm də ərzaq xərcləri artır

Noyabr 13, 2026



'Yeni tariflər qiymətləri artıracaq' - Azərbaycanda inflyasiya əslində necə hesablanmalıdır?

Azərbaycan vətəndaşlarının ticarət şəbəkələrində həm tibbi, həm də ərzaq xərcləri artmaqda davam edir.

Dövlət Statistika Komitəsi (DSK) bildirir ki, 2026-cı ilin yanvar-oktyabr aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara azı 57 milyard 523 milyon manatlıq məhsul satılıb.

Onun azı 31 milyard 58 milyonı manat ərzaq məhsulları, içkilər və tütün məmulatlarına, 26 milyard 464 milyon manatdan çoxu isə qeyri-ərzaq mallarına gedib: “2025-ci ilin

yanvar-oktyabr ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,8 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 1,5 faiz, qeyri-ərzaq malları üzrə 6,6 faiz artıb".

Xərclərdə ötən illə müqayisədə ən çox artım əczaçılıq məhsulları və tibbi ləvazimatlarla bağlı olub, 21.2 faiz.
Azərbaycanda dərmanların qiymətini dövlət tənzimləyir. Amma ekspertlərin fikrincə, Azərbaycanda bir çox dərmanlar qonşu ölkələrlə müqayisədə bahadır. Üstəlik, dərmanların bahalaşması prosesi də davam edir.
Müstəqil iqtisadçılar isə deyir ki, əgər vətəndaşların xərclərinin yarısından çoxu yalnız ərzağa gedirsə, bu onların böyük bir qisminin maddi vəziyyətinin ağırlığından xəbər verir.

Amma rəsmi açıqlamaya görə, Azərbaycanda son illər yoxsulluq 5 faiz civarında dəyişir.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur